Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri - Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası

Humanitar Araşdırmalar İctimai Birliyi

# Mən fəxr edirəm ki, Azərbaycanlıyam!

Heydər Əliyev

Azərbaycan Milli Kitabxanası

Bakı - 2018

## Azərbaycançılıq nədir?

Milli dövlətə mənsubluq əsrlər boyu hər bir xalqın nəyə qadir olduğunu, şərəfli mübarizə yolunu, dünya dövlətləri sırasında layiqli yer tutma əzmini nümayiş etdirib. Bu mənada xalqların qarşıya qoyduğu konkret hədəflərə doğru irəliləməsi prosesində milli dövlətin mövcudluğu vacib şərtlərdən biridir. Ötən əsrin sonlarına doğru çoxəsrlik tarixi mücadilənin yekunu kimi milli dövlətçiliyini bərpa edən, azadlığa qovuşan Azərbaycan xalqının milli inkişaf yolunu və ideologiyasının formalaşması da məhz ulu öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərlik etdiyi dövrə təsadüf edir. Bildiyiniz kimi, Heydər Əliyevin siyasətinin təməlində isə məhz azərbaycançılıq ideyası dayanırdı.

Azərbaycançılıq ideologiyasının əsas komponentlərindən biri də milli mənəvi dəyərlərdir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə azərbaycançılıq, milli mənsubiyyəti, milli mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlər kimi gələcək nəsillərə ötürülməsidir.

Çar Rusiyası dövründə azərbaycanlıların döyüş ənənəsini sıradan çıxarmaq məqsədilə kütləvi şəkildə onları ordu sıralarına qəbul etmədilər. O dövrdə ancaq xan, bəy nəslindən olan azərbaycanlılar orduda xidmət keçə bilərdi və onlar da imperiya ordusunda fərqlənirdilər. Belə azərbaycanlılardan Səməd bəy Mehmandarovun, Əliağa Şıxlınskinin, Hüseyn xan Naxçıvanskinin adını çəkə bilərik. Hüseyn xan Naxçıvanski çar Rusiyasında sonuncu rus çarının general-adyutantı olub və bu da o dövrdə ən yüksək hərbi rütbə, indiki general-polkovnik rütbəsi hesab edilirdi. Ondan sonra bu rütbəyə Səməd bəy Mehmandarov layiq görülüb. Adlarını qeyd etdiyim hər iki şəxs həm çar Rusiyasında, həm də Azərbaycan Xalq Cümhuriyyətinin ordusunda xidmət ediblər".

Sovetlər dövründə də azərbaycanlı hərbçilər digər millətlərdən seçilirdilər. İkinci Dünya müharibəsi zamanı fərqləndiyi üçün general Həzi Aslanov iki dəfə Sovet İttifaqı qəhrəmanı adına layiq görülüb. Digər faktda ondan ibarətdir ki, sovetlər dövründə azərbaycanlıların böyük əksəriyyəti hərbi xidmət dövründə daha çox tikinti və bu kimi kənar işlərə cəlb edilirdi.






Lakin ulu öndər Heydər Əliyev təşəbbüsü ilə 1971-ci ildə Bakıda hərbi məktəb yaradılır və 1972-ci ildə həmin hərbi məktəbə Cəmşid Naxçıvanskinin adı verilir. Məhz bugünkü yüksək rütbəli zabitlərin çoxu həmin məktəbin yetirmələridir. Ümummilli lider hələ o dövrdən düşünürdü ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra bu məktəbin yetirmələri müstəqil Azərbaycan Ordusunun əsasını qoyacaqlar. Bu gün müstəqil Azərbaycanın güclü ordusu var və hər birimiz onunla qürur




duyuruq. Ulu öndər Heydər Əliyevin fərmanı ilə 26 iyun Azərbaycan Silahlı Qüvvələr günü kimi qeyd edilir. Elə bu il həmin tarixdə Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi qeyd edildi və Bakıda möhtəşəm hərbi parad keçirildi. Bizim üçün qürurverici haldır ki, Azərbaycan ordusu beynəlxalq reytinq agentliyinin statistikasına görə dünyanın güclü
200 ordusu içərisində 53-cü yerdə dayanır.
100 illiyi qeyd edildi və Bakıda möhtəşəm hərbi parad keçirildi. Bizim üçün qürurverici haldır ki, Azərbaycan ordusu beynəlxalq reytinq agentliyinin statistikasına görə dünyanın güclü 200 ordusu içərisində 53-cü yerdə dayanır. Ordumuz Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizi hər an azad etməyə hazırdır. Milli Qəhrəman Mübariz İbrahimov və ondan sonra 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycan Ordusunun zabit və əsgərlərinin göstərdiyi şücaətlər bunu bir daha təsdiq edib.

## Milli şüurun formalaşmasında Heydər Əliyev fenomeni

Ümummilli lider milli-mənəvi dəyərlərin, milli ruhun qorunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirib. Əgər ulu öndər Heydər Əliyevin hələ Respublikamıza birinci rəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən işlər görülməsəydi, bu gün Azərbaycanın müstəqil xəttə malik suveren dövlət kimi mövcudluğundan danışmaq çətin olardı.



Ötən əsrin sonlarına doğru çoxəsrlik tarixi mücadilənin yekunu kimi milli dövlətçiliyini bərpa edən, azadlığa qovuşan Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşması da məhz ulu öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərlik etdiyi dövrə təsadüf edir. Heydər Əliyevin siyasətinin təməlində isə vətənpərvərlik dayanırdı".



ARXİV



Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideyasının təbliği istiqamətində çox böyük işlər görüb: "O vurğulayırdı ki, azərbaycanlılar harada yaşamasından asılı olmayaraq, orada milli mənəvi dəyərləri qorumalı və onun təbliğatçısına çevrilməlidirlər. Türkiyəyə tələbələri göndərərkən ulu öndər onlara təhsil alıb vətənə dönmələrini tövsiyə edirdi. Çünki xaricdə əldə olunan biliklər və dünya görüşünə sahib olanlar onu Azərbaycanda gənclərə ötürmək imkanı əldə edirlər. Bu vətənpərvərlik hissi hər bir azərbaycanlının qanına-canına hopubdur. Xaricdə təhsil alan gənclər harada Azərbaycan bayrağını görürdülərsə, onu öpüb gözünü üstünə qoyurdular. Çünki Azərbaycan adının dünyada tanıdılması hər bir azərbaycanlının vəzifə borcu olmaqla yanaşı, həm də qürur mənbəyidir. Heç təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev hər zaman qürurla "Mən fəxr edirəm ki, azərbaycanlıyam" deyirdi.

Bu gün Azərbaycan xalqı vahid amal ətrafında birləşib - ölkəmizi daha da gücləndirməli, müstəqilliyimizi daha da möhkəmləndirməli, ordumuzun gücünü daha da artırmalıyıq ki, öz ərazi bütövlüyümüzü bərpa edək. Heç şübhə yoxdur ki, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi Azərbaycanın tərkibində həmişə olub, bu gün də onun tərkibindədir, gələcəkdə də ölkəmizin tərkibində olacaq. Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Biz sübut etdik ki, bizim taleyimiz öz əlimizdədir, heç bir kənar qüvvə bizə heç nəyi diktə edə bilməz və tarix bunu göstərdi. Biz işğal edilmiş torpaqlara qayıd[illegible] vəzifəmizdir".

Ar 2018
2253






Buklet Azərbaycan Respublikasının
Prezidenti yanında Qeyri-Hökumət
Təşkilatlarına Dövlət Dəstəyi
Şurasının maliyyələşdirdiyi
"Şagirdlər arasında vətənpərvərlik ruhunun
gücləndirilməsi istiqamətində tədbirlərin keçirilməsi"
layihəsi çərçivəsində
Humanitar Araşdırmalar İctimai Birliyi tərəfindən
nəşr edilmişdir.

Ünvan: Bakı şəhəri
Ə.Əbdülrəhimov küç., 14
tel: (012) 408-83-73